# Yurd sevgisi



■ Ramiz Göyüşov

**Rəfail İncəyurd 65 illik yubileyinə özünün özünə ərməğan elədiyi "65-ə 65" şeirlər toplusu ilə gəlir. Topluya İncəyurd son illərdə yazdığı 65 şeirini daxil edib. Onun həyat və yaradıcılığından, keçdiyi ömür-gün yolundan yazmaq, yaradıcılığını səciyyələndirmək üçün bəlkə də elə bircə "65-ə gəlmişəm" şeirinə diqqət etmək kifayət edərdi. On üç bənddən ibarət şeirdə müəllif özünü dərk edəndən bəri yaşamış günlərinin bioqrafik təsvirini verir:**

***Min doqquz yüz əlli dörddən yollanıb,***
***Mən iki min on doqquza gəlmişəm.***
***Altmış beş bir ağsaqqal ömrüdür,***
***Azdan çoxa, çoxdan aza gəlmişəm.***

Rəfail İncəyurda görə Hacı Əfəndi türbəsi də, "keçdiyi müqəddəs Dərə "də, "qatar cöyüzlər" də, "Körpülü öyünün yoxuşu" da, "qoca dağdağan" ağacı da, "xına daşı" da və daha nələr İncə Dərəsində qalıb və ömrünün bu çağında onu bu Dərəyə çəkib aparan da yurd sevgisidir, bu müqəddəs varlıqlardır.

***"Bax, bura mənim Yer üzüm,***
***Bura könlümün odası.***
***Salam, ay anamın ruhu,***
***Salam, atamın duası.***
***Gəldim bir az nəfəs alım,***
***Salam, a məhləm, a kəndim!***
***Salam***

Rafail İncəyurd, məmləkətimizin ən qərb nöqtəsində, sazlı-sözlü bir məkanda dünyaya göz açıb. Aşıq Avdı Qaymaqlının, Aşıq Cəlalın, Aslan Kəmərlinin, Akif Səmədin, Məmməd İlqarın, Məmməd Dəmirçioğlunun, İbrahim İlyaslının... və daha kimlərin dünyaya göz açdığı məkanda. İncə Dərəsində dünyaya göz açmış, sonra da elə bu yerlərin dağlarından pərvazlanaraq bütün Azərbaycana qucaq açmış saz-söz, sənət adamlarının, adlarını saqymaqla qutarmaz.

Bəli Rəfail İncəyurd İncə Dərəsində hər şeyin halal olduğu, "haqqın kirəsinin", "düz verildiyi", "nizam tərəzinin düz qurulduğu," bir məkanda dünyaya gəlib. İncə dərəsində ağaca-daşa, gülə-çiçəyə, adət-ənənəyə, torpağa-daşa, eləobaya bu yurdun insanlarına bir məhəbbət var, sevgi var. Və bir də bu məkanda Eşq var. Yaradana, Tanrıya, Allaha olan böyük bir məhəbbət, sözlə ifadə olunmayan bir sevgi.

***Düz verilir orda haqqın kirəsi,***
***Düz qurulur orda nizam-tərəzi.***
***Eşq yeridir bizim İncə dərəsi***
***Sazdan-sözə, sözdən-saza gəlmişəm.***

Bu yerlərin nəinki saz-söz adamları, hətta ən sadə sakinləri Hacı Mahmud Əfəndinin ocağının irfan bulağından su içərək saflaşmış, durulaşmış insanlardır. Bu yerlərin insanları sadəsindən alisinədək, fəhləsindən aliminədək, ozanından şairinədək İncə Dərəsinin havası-suyu, təbiəti kimi safdır, təmizdir, sadədir, hiylədən, məkrdən, riyadan, nifrətdən uzaqdır, xeyirxahlıqdan yoğrulub. Bax dediklərinin hamısı İncəyurdun yaradıcılığına hopub.

***İrfan soylu kişilərin elindən,***
***Bayatılı nənələrin dilindən,***
***Şah palıdlar kökünün saf telindən,***
***Qətrə-qətrə, sıza-sıza gəlmişəm.***

Rəfail İncəyurd həm də özünü yazır. 65 illik "bir ağsaqqal ömrünün keçdiyi yoldan, gah yağışlı, gah yağmurlu, gah da daşlı, kəsəkli yoldan. Lakin nə qədər ağrılı-acılı olsa da onun həyatının ağrısı da şirin olub.

***Həyat varsa ağrısı da şirindi,***
***Acizin yox, o, nər oğlu nərindi.***
***Kim bilmir ki, qəm dəryası dərindi,***
***Ortasında üzə-üzə gəlmişəm.***

Ancaq ömür yolu nə qədər qəhərli, qədərli, çətin olsa da, heç vaxt haqqı-nahaqqa, düzü əyriyə, mərdi-namərdə, yaxşını-pisə, qıymayıb. Həmişə haqqa tapınıb, haqqın yolun tutub. Nəsimi babası kimi haqq deyib.

***Haqqın evi, haqq əlində qurular,***
***Haqqın yolu, haqdan dönsə qırılar.***
***Qoca dünyam ümid yeri durular,***
***Mənəm, buyam, sizdən sizə gəlmişəm.***

Zənnimcə Rəfail İncəyurdun yaradıcılığından yazmaq, elə İncə Dərəsinin ağacından-yarpağından, təbiətin yaratdığı min bir varlıqdan yazmaq deməkdir.

Rəfail İncəyurdun oxuculara təqdim olunan bu kitabına daxil edilən şeirlərinin əksəriyyəti qoşma janrında yazılmışdır. O, İncə Dərə poeziya məktəbinin nümayəndəsidir və bu baxımdan onun yaradıcılığında bir ənənə sadiqliyi var. İncə Dərəsindən pərvazlanmış bütün şairlərin demək olar hamısı kimi Rafail İncəyurd da yaradıcılığında həmişə təcnisə müraciət edib. Xalq poeziyasında, xüsusilə aşıq yaradıcılığında geniş yayılmış və qoşmanın bu növü həm də müəllifindən peşəkarlıq və xüsusi istedad tələb edir. Hələ vaxtilə aşıqlar arasında keçirilən söz və saz yarışmalarında aşıqlar bir-birini şeirin ən çətin növü olan təcnislə sınağa çəkərdilər. Mənbəyini sufi şeirindən götürən təcnis İncə Dərəsinin irfan poeziyasının nümayəndələrinin hamısının yaradıcılığında yer almışdır və bu mənada Rafail İncəyurd da istisna təşkil etmir. Onun təcnisləri bir-birindən maraqlıdır və müəllifin ustalığına və istedadına dəlalət edir.

***Ən gözəl mələyin qanadlarında***
***Hər savax göylərdən Ayəm, ən də-gəl.***
***Onsuz da Tanrının dərgahındayam,***
***Cəmdi gör nə qədər Ayə məndə, gəl.***

***Kimi incələməz incə yurd, kimi?***
***Varmı incələrdən incə yurd kimi?***
***Ruh olub dönəndə İncəyurd kimi?***
***Olum bir deyimlik Ayə mən də gəl.***

İlk baxışdan adama elə gəlir ki, folklora, aşıq şeirinə-qoşmaya, təcnisə söykənən Rəfail İncə-yurdun poeziyası elə bu qoşmalarla da bitəcəkdi. Lakin onun yaradıcılığına vardıqca şairin dövrünə, zəmanəsinə, ictimai mövzulara həsr etdiyi şeirlərində onun narahat qəlbinin çırpıntılarını hiss edirsən:

***Hərdən haray vaxtı susur qələmlər,***
***Hərdən də ağ yalan qusur qələmlər.***
***Özünü asdıqca qısır qələmlər,***
***Edam ağacında bar gəzirik biz.***

Və ya:

***İçimə doluşan YOXlar edir dəng,***
***Halalca haqqımla cəng eyləyir,***
***cəng.***
***Hardadı ulduzlar, hanı o Xərçəng,***
***Adamdan keçibdi bürcə sözüm var.***

Kolorit, canlı xalq danışıq dili, unudulmuş sözlərin, şivələrin şeirdə işlədilməsi Rəfail İncəyurdun şeirlərinə xüsusi bir gözəllik bir şirinlik gətirir.



***Ərşi-gürşü dağıdan sərt davalar***
***Aşıb-daşan bəd marağın üstdədi.***

***Şirinliyi görk eləyən hər nə var,***
***Hasarını aşan tağın üstdədi.***

Deyirlər ki, xalqın ruhu onun adət ənənəsində, dolanışığında, mətbəxində folklorunda yaşayır və şairlər o ruhun daşıyıcılarıdır. Əgər bun gün biz uzun illərin yasaq və qadağalarından sonra dilimizi, adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi qoruyub saxlaya bilmişiksə, ilk növbədə şairlərə, ədəbiyyata borcluyuq.

Rəfail İncəyurdun şeirlərində etnoqrafiq yaddaş o qədər güclüdür ki, müəllifin yaddaşına, həm də ustalığına qibtə edirsən. Şair səni uzaqlara uşaqlıq vaxtına, yaddaşımızda ilişib qalmış, indi heç kənddə də qalmayan müxtəlif tədbirlərə, adət-ənənələrə, lap elə təbiətin o vaxtındakı şıltaqlığına aparır.

***Dov gəlim hicran zoruna,***
***Döşənim el hüzuruna.***
***Havalanıb qara zurna,***
***"Bəhməni"yə qatar məni.***

Rəfail İncəyurdun yurd sevgisi bir də onun İncə Dərəsini özünə təxəllüs götürməsində büruzə verir.

Aman-zaman İncə Dərəsindən olan saz-söz adamları İncədəki yer adlarını özlərinə ləqəb götürmüşlər. Bununla onlar, həm özünün hansı məkana mənsub olduğunu bildirmiş, həm də öz yaradıcılığı ilə həmin məkana şöhrət gətirmişlər. (Aslan Kəmərli, Avdı Qaymaqlı, İlham Aslanbəyli və s.) Lakin, Rəfail İncə Dərəsini bütünlüklə öz yurdu, eli - obası hesab edir və bu səbəbdən də bütöv İncə Dərəsini öz doğma yurdu sanır.

Oxuculara təqdim olunan bu kitaba müəllifin 60 yaşından sonra yazdığı şeirlər daxil edilib. Bu şeirlərin çoxunda bir payız qoxusu, bir həzinlik, kövrəklik hiss olunur. Özüm də həmin yaşda olduğumdan, müəllifin içindən, süzülüb gələn, sonra da muncuq kimi şeirə çevrilən hissləri başa düşmək mənim üçün o qədər də çətin deyil.

***Keçindik hər payız, doğulduq hər yaz,***
***Son çatır bəs niyə bəxt olmur taraz?***
***A fələk, a mələk, bərrək dur bir az -***
***Dinlə, ahım boyda bircə sözüm var.***

Hətta Rəfail İncəyurdun sevgi, məhəbbət mövzusunda yazdığı şeirlərində də bir payız nisgili var, kövrəklik var. Bu baxımdan onun "Qocaman şairin sevgi şeiri" diqqət çəkəndir.

***İtkin sevdaların dilindən düşüb,***
***Büdrəyən kəhərin belindən düşüb,***
***Təntiyib, titrəyən əlindən düşüb,***
***Qocaman şairin sevgi şeiri.***